UOT 902

FƏRRUX MUXTAROV
"Çıraqqala-Şabran"Dövlət Tarix-Mədəniyyət Qoruğununelmi işçisi
muxtarovferrux0@gmail.com

ÇIRAQ QALA: TARİXİ, ETİMOLOJİ, ARXEOLOJİ VƏ ETNOQRAFİK ASPEKTLƏRDƏ TƏHLİLİ

DOI: https://doi.org/10.36719/2708-065X/109/243-246

Azərbaycan ərazisində yerləşən qədim qalalar yalnız memarlıq deyil, həm də hərbi-strateji, mədəni və etnoqrafik baxımdan əhəmiyyətli abidələrdir. Onlardan biri olan Çıraq qala, Şabran rayonu ərazisində yerləşərək əsrlər boyu regionun müdafiəsində və yerli əhalinin həyatında zaman–zaman baş verən üsyanlar, işğallar, müharibələr, təbii hadisələr zamanı xəbərdarlıq mahiyyətli işlərin həyata keçirilməsində mühüm rol oynamışdır. Bu məqalədə Çıraq qalanın arxeoloji, tarixi, etnoqrafik və etimoloji aspektləri komplek sşəkildətəhliledilir. Çıraq qala yalnız hərbi məqsədlərlə deyil, həm də sosial-iqtisadi həyatla bağlı müxtəlif fəaliyyətlərin mərkəzi olmuşdur. Qala ətrafında aparılmış tədqiqatlar bu ərazidə qədim məskunlaşmaların mövcud olduğunu və əhalinin müdafiə olunmaqla yanaşı, gündəlik fəaliyyətlərini də burada davam etdirdiyini göstərir.

Açar sözlər: istehkamlar, ticarətin müdafiəsi və qalalar, sərhədlərdəki tikili,təsərrüfatda istifadə.

Giriş. Azərbaycan tarixşünaslığında bu abidə haqqında olan əsas müddəalr bundan ibarətdir: Çıraq qala Azərbaycanın şimal sərhədlərinin qorunmasında mühüm yer tutan müdafiə qalalarından biri olmuşdur. Sasani İmperiyası dövründə (III–VII əsrlər), xüsusilə Xəzər hücumlarına qarşı müdafiə məqsədilə inşa edilmişdir (5). Qala həm də "Gilgilçay müdafiə səddi" sisteminə daxil olan qalalar silsiləsinə aiddir. Bu müdafiə xətti Xəzər dənizindən başlayaraq dağlıq ərazilərə qədər uzanırdı və Sasani dövründə imperiyanın şimal sərhədlərini qoruyurdu (7).

Orta əsrlər boyu Çıraq qala müxtəlif dövlətlərin nəzarəti altında olmuş, ərəb işğalları dövründə də əhəmiyyətini qorumuşdur. Orta əsrlərdə bu bölgə həm ticarət yollarının üzərində yerləşdiyindən, həm də strateji yüksəklikdə olduğundan müxtəlif hakim qüvvələrin maraq dairəsində olmuşdur. Çıraq qala yalnız Sasani dövründə deyil, sonrakı dövrlərdə də, o cümlədən Şirvanşahlar, Səfəvilər, xanlıqlar dövründə sərhəd mühafizəsində istifadə edilmişdir.

Bu mülahizələrdən əlavə mövzunun araşdırılması zamanı rast gəldiyimiz müəyyən fikirlər zənnimizcə xeyli inandırıcı və dəyərlidir. Bu mülahizələrdən biri Azərbaycan tarix elmində xüsusi rola malik olan mərhum alimimiz Sara xanım xanım Aşurbəylidir. Alimin akademik əsərlərindən olan "Şirvanşahlar dövləti" kitabında qeyd edilir ki, "sasanilər Dərbənd keçidinə böyük əhəmiyyət verirdilər. V-VI əsrlərdə türk köçəri tayfalarından şimal sərhədlərini qorumaq üçün müdafiə sədləri, qalaları tikmişdilər. VII əsrin birinci yarısına doğru Şimali Qafqaz ərazisində və Volqa çayı hövzəsində yaradılan Xəzər xaqanlığının yürüşlərindən qorunmaq üçün bu tkililərdən istifadə edirdilər"(2, s.50). Bundan başqa maraqlı bir fakt kimi müəllif eyni mənbədə "Xilafət dövründə Xəlif əl-Mənsur (754-775) Azərbaycanın, Aranın, Şirvanın hökmdarının Yazid ibn Usayd as Sulamini seçmişdi. O, xəlifin məsləhəti ilə Xəzər xaqanının qızı qızı Xatunla evləndi.Görünür bu zaman xəzər dövləti xeyli güclənmişdi və əksinə Xilafət daxili çəkişmələr nəticəsində o qədər zəifləmişdi ki, yazidi hərbi qüvvələrlə təmin edə bilmirdi. Xaqanın qızı bu hökmdardan iki oğlan dünyaya gətirdi. Amma Bərdədə 2 il 4 ay yaşayan xatun xanım rəhmətə getdi və tezliklə hər iki oğlu da öldü. Qızının qəsdən öldürüldüyünü düşünən xaqan 200 minlik ordu ilə Dərbənddən ərəb canişininə qarşı hərəkətə keçdi. Yazid isə 60 min nəfərdən ibarət qoşun hissəsi ilə Kür çayını keçərək Şirvana çatdı. Döyüş zamanı məğlub olan Yazid Xirs (Xurs? Çırax qala) qalasına qaçdı" (2, s.54).

Demək, sasanilər tərəfindən Beşbarmaq, Gilgilçay müdafiə xəttinin bir hissəsi olan Çıraq qala, demək olar ki, eyni vaxtda Buğurd, Şahdağ qalasının inşa edildiyi və Şirvanın bütün yüksəklik dağlıq ərazilərini əhatə edən silsilə tikililər orta əsrlərdə hər zaman mühüm hərbi –strateji xüsusiyyətlərə malik olan memarlıq abidəsi olduğunu ərəblər də bilir və yeri gəldikcə istifadə edirdilər. Yeri gəlmişkən

qeyd etmək lazımdır ki, məşhur səyahətçi Evliya Çələbi Çıraq qalanın da daxil olduğu Şabran ərazisini təsvir edərkən xüsusi olaraq qeyd edirdi ki, beşinci iqlimin hüdudlarında yerləşən bu şəhər havasına və suyuna görə Təbrizdən sonra ikinci mühüm şəhər hesab edilir (13, s.170).

Digər bir mühüm tarixi məsələ ondan ibarətdir ki, sasanilərin həyata keçirdikləri bu hərbi starteji xarakterli möhtəşəm layihə Qafqaz-Azərbaycan Albaniyasının zamanında və məkanında həyata keçirilmişdi. Bu dövlətin mövcudluğu yüzilliklərdə yerli ustaların tikinti, memarlıq üslubları bu günkü baxışlardan tam formalaşmışdı. Yadelli sasanilər sözsüz ki, bütün müdafiə xəttinin, o cümlədən mürəkkəb dağlıq relyefdə yerləşən Çıraq-qalanın tikintisində yerli ustalardan və tikinti materiallarından istifadə etmişlər.

Bundan başqa sasanilər çox yaxşı bilirdilər ki, "Alban eli ilə quzeydə yaşayan türklər arasında sıx əlaqə vardı və Kador, Daryol (Dəryal), Salavat, Axtı, Dərbənd və sair keçidlər vasitəsilə ilə gerçəkləşən bu əlaqə siyasi inzibati sınırların fövqündə idi. Özəlliklə heyvandarlıqla məşğul olan bəzi köçəri türk boyları yayı Dağıstanda, qışı Muğanda keçirirdi. Belə ki, zəif şəkildə olsa da həmin gələnək bu günəcən davam edir. Sasani çağında strateji yollar üzərindəki keçid məntəqələrində qurulan bəndlər, hərbi qarnizonlar üçün tikilən qalalar Alban eli ilə Dağıstan arasında gediş gəlişi azaltdı" (1, s.414).

Əlbəttə sasanilərin əsas məqsədlərindən biri yerli türk tayfaları ilə Qafqazın şimalından başlayaraq indiki Rusiya, Mərkəzi Asiyanın eyni köklü tayfaları, dövlətləri arasında əlaqənin kəsmək, parçalayaraq, işğallarını daha da gücləndrmək idi. Bu zaman onların əsas düşməni yeni yaranan Xəzər xaqanlığı idi. "Batı Hun imperiyasının tərkibində olan xəzərlər Atillanın ölümündən sonra (454) müstəqil siyasət yeridirdi. Belə ki, onlar 457-ci ildə sasani qarnizonlarını dağıdıb İranı yağmalayaraq, Albaniyaya qayıtdılar. Həmin dönəmdə Kür-Araz bölgələrində mmöhkəmlənib, İberiya və Ərməniyyəyə basqınlar etdilər. Xəzərlər bir müddət Avar dövlətinin tərkibində oldu və bu fürsətdən yararlanan sasani şahı Qubad (488-531) Bizansın maliyyə yardımı ilə xəzərlərə qarşı çoxlu istehkamlar inşa etdi. Bəzi mənbələrə görə belə istehkamlar Dərbəndəcən quruldu"(1, s.415). Bu cür mürəkkəb tarixi, siyasi hadisələr gedişində Qafqazın cənubu süni şəkildə və müvəqqəti də olsa türk dünyasından ayrı salındı.

Çıraq sözünün etimoloji analizinə keçid alarkən yuxarıda S.Aşurbəylinin əsərindən gətirdiyimiz bir istinaddakı Xurs sözündən başlamaq lazımdır. Xirs və yaxud Xurs qədim türk dilində bir neçə məna daşıyırdı. Lakin ümumi qəbul olunmuş ehtimallara əsasən, bu söz işıq, nur, parıltı anlamında olaraq, günəş və ya işıqla, alov, od, yaxud da oddan törəyən kimi tərcümə olunur. Bundan başqa Xurs kəlməsi qədim türk mifologiyasında Günəş Tanrısının adı olduğu məlumdur (8, s.11).

Çıraqlı, çıraq sözü erkən orta əsrlərdən adları çəkilən türk tayfaları sırasında vardır. Bu tayfa haqqında olan məlumatları araşdırarkən onların nəinki Azərbaycanda , həmçinin müasir Gürcüstanda, daha dəqiq Kartlidə iberlər lə ynaşı gögər,qamər, kaspi, qambiça, erher, siraq, boriça, alban və başqa türk boyları yaşayırdı.Sonralar bura çoxsaylı qıpçaq boyları da gəlib yerləşmişdi. Bu ərazi məhz çoxsaylı türk tayfalarının tarixi yurdları olduğundan gürcü mənbələrində Didi Türkoba adlanırdı (1, s.412).

Çıraq, yaxud şirakların adı Xəzər dövlətinin güclənməsində iştirak edən türk boylarının sırasında ehtiramla yad edldiyini Azərbaycanın tanınmış dilçi alimi F.Ağasıoğlu tərəfindən qeyd olunmuşdu. Alim özünün çoxcildli "Azərbaycan türklərinin islamaqədərki tarixi "əsərində bir neçə dəfə onlar haqqında məlumatlar verir. "Xəzər imperiyası 630-da Göytürk İmperiyasının süqutundan sonra doğuldu. Xəzərlərin ətrafında birləşən türk boylarının bir qismi Xəzərin güney və batı yaxaları ilə yuxarı qalxanlar, bir qismi saqa, qəmər, hun və avarlardan qalan qamər, kabar, yanur, uquz, tiras, kedar, gögər, avar, ağaçəri, **Şirak**, uqur, saraqur, kurtiqur, utiqur, hun, ağhun, qarahun, xaylanturk, bulqar, asvir, barsil, dondar tayfaları idi" (1, s.416). Alim ayrıca bu sözün dilçilik baxımdan izahını belə araşdırmışdı: "Siraq. Qədim türk yazılarında işlənən "türk sir budun", "sir yabqu"deyimlərndə və özbək elindəki kara-sirak etnonimində görünən siraq(sir-oq)boyunun adı sir budin şəklində Buxara yaxınlığındakı Sirbudun toponimində qalmışdı. Göründüyü kimi, siraq etnonimin tərkibi qədim türk boy adlarının yaranma modelini sir-oq/sir-budunşəkillərində çox aydın əks etdirir. Öncə Orta Asiyada, sonra Kuban düzündə, daha sonra Güney Qafqazda görünən siraq boyları Alban elinə qüzeydən gəlmişlər. Kubanda yerləşən siraqların İber və Alban sərhədlərinə qədər yayıldığını vurğulayan Strabon yazırdı ki, Qafqaz dağlarından Azova axan Axardey çayı boyunca yaşayan sdiraqların başçısı Abeak 20 min atlı qoşuna malik idi. Siraqların böyük bir hissəsi Güney Qafqaza II –III əsrlərdə keçmişlər. Bu türk boylarının oturduğu bölgələr Kambisen vilayətində Şirak düzü, Kür boyunca Şirvan düzü adlandırmış-

dı. Onların Ağrı dağı vadisində yerləşdiyi bölgə Şirak eli, adlanıb, sonralar yerli azər türklərinin dilində Şörəyel şəklinə düşmüşdü, hay qaynaqlarında bu bölgənin adını Şirak və Şirakovan kimi verir" (1, s.450-451).

Görkəmli tarixçi alim Q.Qeybullayevin fikirlərinə görə, Alabaniyada yaşayan tayfalar arasında alban, abant, aran, qat, quqar, qarqar, kaspi, kəmər, lbin (lpin), maskut, sliv, ciqb, çul, gel, lek, sak, satak, uti, şarvan, şamak, şirak, her. Bunlardan alban, abant, aran, qarqar, quqar, maskut, satak, çul, şarvan, şamak və **şirak** türkmənşəli ellər idilər (3).

Elmi ədəbiyyatda lakonik olaraq "Çıraq qala" toponimi iki hissədən ibarət söz kimi qəbul edilir: "Çıraq" sözü qədim türk və fars dillərində "işıq", "lampa" və ya "yanan alət" mənasında işlənir. "Qala" isə türkcə "müdafiə tikilisi" anlamındadır. Beləliklə, "Çıraq qala" sözünün mənası "işıq siqnalı verən qala" kimi anlaşılır. Tarixi mənbələrdə bu adlandırma funksional xüsusiyyətləri ilə uyğunluq təşkil edir (8, s.56).

Beləliklə, Çıraq qalanın etimoloji izahı müvafiq olaraq iki aspektdən- yerləşdiyi məkanın tranzit ticarət yolunun üstündə, dağlıq ərazinin hündürlüyündə olaraq, həm də Xəzər dəniznin sahilinə yaxın olması ilə bağlı Günəşin izlənməsinə daha yaxın, od kimi şüaların hər təfədən görünməsi tikintinin həyata keçirildiyi məkanın relyefi baxımından və ikincisi, ola bilər ki, qalanın tikintisi zamanı yaxınlıqda yaşayan çıraq-şirak tayfalarının adına uyğun olaraq belə adlandırlsın. Adlandırmada ərəblərin istifadə etdiyi Xurs sözü də eynilə qədim türk dilində eyni mənanı kəsb etdiyindən bu qalanın yerli xalq tərəfindən inşa edilməsinə şübhə qalmır.

Arxeoloji tədqiqatlara əsasən, Çıraq qala dağlıq relyefə uyğun şəkildə inşa olunmuş və yerli daş materiallarla tikilmişdir. Aparılan arxeoloji qazıntılar nəticəsində ən aşağı mədəni təbəqələr son antik dövr-erkən orta əsrlərə təsadüf edir.Qalanın yerləşdiyi ərazidə yaşayış XVIII əsrin sonlarına qədər müxtəlif məqsədlərlə davam etmişdi. Qalanın divarlarının eni bəzi yerlərdə 2 metrə, hündürlüyü isə 8–10 metrə çatır. Qala daxilində nəzarət qüllələri, keçid yolları, su anbarlarının qalıqları və keşikçi məntəqələri müşahidə olunur (4, s.78). Qala sistemli siqnal və müşahidə məntəqəsi kimi fəaliyyət göstərmişdir. Bu siqnal sistemi, od və ya ocaq yandırılmaqla digər qalalara xəbərdarlıq etmə, ötürmə məqsədi daşıyırdı. Bu, onu yaxınlıqdakı Babadərə, Gülüstan və Gilgilçay kimi qalalarla əlaqələndirirdi. Son dövrlərdə aparılan qeyri-rəsmi arxeoloji müşahidələr qalanın ətrafında yaşamış kəndlərin və karvan yollarının izlərini üzə çıxarmışdır.Qala yaxınlığında tapılmış keramik fraqmentlər, dəmir alətlər və sadə məişət əşyaları burada həm də ayrı ayrı tarixi dövrlərdə intensiv yaşayış və təsərrüfat fəaliyyətini sübut edir.

Abidənin etnoloji, etnoqrafik izahına görə Çıraq qalanın ətrafında yaşayan yerli əhali arasında bu qala ilə bağlı müxtəlif əfsanələr və inanclar formalaşmışdır.Bəzi rəvayətlərə görə, qala gizli keçidlər və xəzinələr saxlayırmış.Digər versiyalara əsasən, burada qoruyucu ruhların yaşadığına inanılır (9, s.30-38).

Eyni zamanda, etnoqrafik baxımdan qala əhalinin toplanma və sığınacaq yeri kimi istifadə olunub. Hücum təhlükəsi zamanı əhali qalanın daxilinə çəkilərək müdafiəyə keçirmiş.

Əhali arasında Çıraq qala ilə bağlı bayatılar, nağıllar və dastanlar da yaşamaqdadır.Məsələn, "Çıraq yananda düşmən qaçar' ifadəsi xalq yaddaşında bu qalanın qoruyucu və siqnalverici funksiyasını simvolizə edir.Yaxın vaxtlara qədər bəzi bayram və mərasimlərdə bəzən bu qala ilə bağlı xüsusi mərasimlər, ocaq qalama ritualları da icra olunurdu.

Hazırda Çıraq qala Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi tərəfindən tarixi abidə kimi qeydiyyata alınıb və mühafizə olunur.Turist marşrutlarına daxil edilməsinə baxmayaraq, infrastruktur imkanları məhduddur, bu da abidənin geniş ictimaiyyətə tanıdılması baxımından problem yaradır.

Nəticə. Çıraq-qala yalnız bir memarlıq abidəsi deyil, həm də Azərbaycan tarixinin, etnoqrafiyasının və dilinin mühüm daşıyıcısıdır. Onun çoxşaxəli təhlili Azərbaycanın qədim dövlətçilik ənənələrini, müdafiə sistemlərini və xalq yaddaşını öyrənmək baxımından qiymətli mənbədir.

ƏDƏBİYYAT

1. AğasıoğluF.Azərbaycan türklərinin islamaqədərki tarixi. Azərbaycanda qurulan qədim dövlətlər. III bitik.Bakı, "Ağrıdağ", 2014, 512 s.
2. Aşurbəyli S. Şirvanşahlar dövləti. Bakı, "Əbilov, Zeynalov və oğulları", 2006, 278 s.

3. Qeybullayev Q. Albaniyanın əsasını qoyan türk tayfaları. - https://gadtb.com/albaniyanin-%C9%99sasini-qoyan-turk-tayfalari/ [16.04.2025].
4. Quliyev T. Şimal sərhəd qalalarının arxeoloji araşdırması // Azərbaycan Arxeologiyası, Bakı, 2015, №2, s. 45–60.
5. Əliyev A. Qafqaz Albaniyası və Sasani müdafiə sistemləri. Bakı," Elm", 2010, 190 s.
6. Əliyev Ə.Azərbaycan toponimlərinin ensiklopedik lüğəti. II cild, Bakı, "Elm", 2002, 382 s.
7. Əlizadə S. Azərbaycanın orta əsr qalaları. Bakı,"Şərq-Qərb Nəşriyyatı", 2008, 128 s.
8. Məmmədli V. Azərbaycan toponimlərinin etimologiyası. Bakı, "Nurlan", 2011, 156 s.
9. Rzayev N. Şimal-qərb bölgəsi xalq yaddaşında Çıraq qala, «Etnoqrafiya jurnalı". Bakı, 2009, №1, s.30-38.
10. МахмудовН.Г. Тюркские элементы в топонимике Кавказа. Баку, 1985, 308 с.
11. Этимологический словарь тюркских языков. Ред. С.Е. Малов. Москва, Наука, 1984, 767 с.
12. Васильев Л.С. Жревние тюрки и их культура.Moskva, 1980, 245 с.
13. ЕвлияЧелеби. Книга путешествия. вып.3, Москва, Наука, 1983, 375 с.

ФАРУХ МУХТАРОВ
Научный сотрудник Государственного историко-культурного заповедника «Чирагкала-Шабран»

ЧЫРАГ ГАЛА: АНАЛИЗ В ИСТОРИЧЕСКОМ, ЭТИМОЛОГИЧЕСКОМ, АРХЕОЛОГИЧЕСКОМ И ЭТНОГРАФИЧЕСКОМ АСПЕКТАХ

В статье приводятся сведения о железных орудиях, обнаруженных на памятнике «Узунбойлар». Материальные и культурные остатки, полученные в ходе археологических раскопок в указанном памятнике в целом являются являются ценным источником для изучения хозяйственной жизни населения всей Кавказской Албании в целом и конкретно, из Узунбойлар. В статье утверждается, что орудия труда из железа играли важную роль в жизни населения, поскольку они изготовлены высоким мастерством и совершенными навыками металлобработки.

Ключевые слова: укрепления, защита торговли, крепости, приграничные постройки, хозяйственная деятельность.

FARRUKH MUKHTAROV
Researcher at the "Chiraggala-Shabran" State Historical and Cultural Reserve

CHIRAG GALA: ANALYSIS FROM HISTORICAL, ETYMOLOGICAL, ARCHAEOLOGICAL, AND ETHNOGRAPHIC PERSPECTIVES

The ancient fortresses located on the territory of Azerbaijan are not only architectural monuments but also hold significant military-strategic, cultural, and ethnographic value. One such fortress, Chirag Gala, situated in the Shabran region, played a vital role throughout the centuries in the defense of the region and in the lives of local people during uprisings, invasions, wars, and natural disasters by serving as a signal fortification. This article presents a comprehensive analysis of Chirag Gala from archaeological, historical, ethnographic, and etymological perspectives. The fortress functioned not only for military purposes but also served as a center of various socio-economic activities. Research conducted around the fortress indicates the presence of ancient settlements in the area, where the population continued their daily activities alongside ensuring their defense.

Keywords: fortifications, trade protection, fortresses, border structures, economic activity.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 16 aprel 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 may 2025-ci il.
Rəyçilər: t.ü.f.d. Qənirə Pirquliyeva, t.e.d. Əmrah Dadaşov.